

Rahid Ulusel

# Damlada okean yaddaşı

*XXI əsrin aforizmləri*

**İkinci hissə**

Kainat - Hüceyrə, Hüceyrə - kainatdır.

* * *

Damlada okeanın yaddaşı olmasa, ona qayıda bilməz.

* * *

İnsanlığın Süd Yolu - o, milyardlarla insan-planetin günəşlər, ulduzlar, qara dəliklər, meteoritlər, dumanlıqlarla dolu qalaktikasıdır.

* * *

Varlığın maddi və ruhi başlanğıcları arasında kosmoqonik mübadiləni həyata keçirən böyük qüdrət - yaradıcı insan!

* * *

İnsan İdrakının oxu, nəhayət, bu həqiqətin üzərinə tuşlanır: Dünya - mənim həyatımın tarixidir.

* * *

Dünya - indiyəqədərki, indiki, indidənsonrakı bütün həyatı ilə mənim taleyimdir.

* * *

Zərrəsinin qabağında diz çökmədən, Universumun qəlbini fəth edə bilməzsən.

* * *

Yer üzü və Göy üzü: bu iki poliqon hər zaman sənin uçuşuna hazırdır!

* * *

Günəş hər batanda yerində min bir ürəyin heç zaman batmayacaq Günəşi doğulur!

* * *

Bir dəfə baş vurduğun dərinliyə üç dəfə qayıdırsan: birinci dəfə onun poeziyasını, ikinci dəfə onun elmini, üçüncü dəfə onun fəlsəfəsini dərk edirsən.

* * *

Səs - yaranışla, Söz - İnsanla başlayır: musiqidə qoca səslə gənc sözün vəhdəti onların milyard illərlə bir-birinə həsrətlə can atmasından, bir-birini mayalandırmasından qaynaqlanır.

* * *

Hər daban yerə dəyəndə üzərində kimin gəzdiyini hiss edir Yerüzü.

* * *

Əgər varlıq son məqsədlərinədək fiziki mövcudluqla bitsəydi, onda İNSAN yaranmazdı!

* * *

İnsan - Kainatın subyekti.

* * *

"Böyük Partlayış"da iştirakınızı yada salın və bərpa olun. Bunsuz kənarda qalırsınız Kainat həyatından.

* * *

Bütün varlığınla milyard illərin yaradılış prosesindən keçmədən Yaradanı necə dərk etmək olar?!

* * *

Kainatın qalaktikaları - onun "qırağı" və "mərkəzi" olmayan məkanında bütün istiqamətlər üzrə bərabər şəkildə yer alıb: bu da İnsan üçün quruluşunda belə "demokratik nizam" daşıyan Kainat örnəyi!

* * *

Hər gün əbədiyyətin iliklərinə varmasan, zaman sənin üçün adicə təqvimdir.

* * *

Kainatın elə bir zərrəsi yoxdur ki, Varlıq onsuz mümkün olsun.

* * *

Kosmik əxlaq: o, Varlığın fiziki qanunlarının ruhudur.

* * *

Var olmamaq mümkün deyil.

* * *

Qalın bulud, çən və dumanlıqlarla örtüləndə ana Yer qucağında insan balası ilə nə qədər tək-tənha olduğunu anlayır.

* * *

Yer planeti - bizim beşik-vətənimiz, Kainat isə - strateji-vətənimiz.

* * *

Varlıq evində bir-birinə doğma olmayan iki yad tapa bilməzsən.

* * *

Mənim bəşəriyyətim! - Bu düşüncə ilə yaşayan kəs onun həqiqi üzvü ola bilər.

* * *

Varlıq içrə onunla təkbətək qalan Taleyin özünə ən fundamental sualı: Mən kiməm - zamanın epizodu, yoxsa hadisəsi?

* * *

Diqqətlə bax ilk dəfə gördüyün hətta ayrı irqə mənsub bu yabançının üzünə: min illər öncənin doğmasını tanımırsanmı?!

* * *

Qalaktikanın tən ortasında onun bütün subyektlərini udacaq qara dəlik: Həyat Ölümün başına dolanır.

* * *

Kainat - insanın böyük axtarışlarının yurdu. Ona vardıqca, insan özünü tapacaq. Özünüdərketmə və özünüyaratmanın ümumkainat təsdiqi budur!

* * *

Meteor hədələri - planetimizi onun potensial müqavimət gücündə atomikləşməyə və yubanmadan, cəsarətlə transkosmik həyata adlamağa səfərbər edir.

* * *

Mən bütün Toxum-İdeyaların Təbiətlə Bəşəriyyəti birləşdirən üfüqdən doğduğunu görürəm.

* * *

Beyin düşünəndə nəfəs alır.

* * *

Hələ də fikir kosmosunda baş-planetə düşüb onu titrətməmiş nə qədər meteor-aforizm var.

* * *

Allaha suallarınızın cavabını təbiətdə axtarın.

* * *

Təbiət və Müdrik: onlar eyni cür yaşayır.

* * *

İçindəki dünyanı çölündəki dünya qədər böyütdükcə dərinləşir İnsan.

* * *

Təbiət özünə meydan oxumaqdan həzz alır.

* * *

Zəlzələ və layla: onlar Ana Təbiət tərəfindən eyni stixiya - eyni nəvazişlə çalınır.

* * *

Təbiətdən ayrılmış sivilizasiya ana döşündən qopardılmış südəmər kimidir.

* * *

Biz təbiətə imkan verməliyik ki, məqsədlərimizi başa düşsün.

* * *

Təbiət estetikasının əlifbasını öyrənməyə kəpənəyin qartaldan qat-qat mürəkkəb uçuşunun havada cızdığı trayektoriyadan da başlamaq olar.

* * *

Bütün həyatını danışar meşənin yarpaq ağacdan düşüncəyədək...

* * *

Təbiətin qotikası - sərv arxitekturası.

* * *

İnsan Kainata toxum kimi də, qəlpə kimi də yayıla bilər.

* * *

Kosmosa yalnız son yüzillikdə yol açan bəşəriyyətin Kainat strategiyası elə bu çağdan müəyyənləşməlidir. Bəşəriyyət isə hələlik özünün qırıntılarından ibarətdir. Bu halda biz ancaq Kainatın zirzəmisində yaşaya bilərik.

* * *

Musiqi, əslində, susmaqdır: varlığın zahiri-formal dili bağlanır, iç-mahiyyət dili açılır ki, bu dildə onun bütün dürləri bir-biri ilə danışa bilir. Hə. Musiqinin genezisindəki harmoniya - Vəhdətin dilidir.

* * *

Antropologiyada susuzluq: təbiətlə dialoqsuzluq.

* * *

Sivilizasiyadan fərqli olaraq, Təbiət özünü boşluqla doldurmur.

* * *

Toxum cücərdən torpağın hətta bişəndə də canlanmasını duymasaydı, barmaqlar saxsıdan çiniyə necə çata bilərdi?!

* * *

Bütün canlıların çıxardığı səslər - onların hər birinin funksional mahiyyətinin dəqiq intonasiya ilə bəliridir.

* * *

Meyvələrin özünəməxsus rəngi - onların özünəməxsus dadının, çiçəklərin biçimi - onların ətrinin şəklidir.

* * *

Saralmış yarpaq budaqdan qopub yerə düşüncə, yenə yaşıllaşacağı çağın bəstəsinin ilk xallarını tutur.

* * *

İşıq da istəyir ki, öz kölgəsində dincəlsin.

* * *

Planetdən ayrı cür refleksiyalar alırlar: ona tikan tək batanlar, onu qələm tək yazanlar.

* * *

Həyatda olduğu vaxtdan da daha çox həyatda olmayanda olandır Əsil İnsan!

* * *

Əbədiyyət - mütləq şəkildə fatalizmi inkar edir.

* * *

Kəsdiyin ağac ona görə qışqırmır ki, kar olduğuna səni utandırıb diksindirməsin.

* * *

Ani baş verənlərdən heç biri ildırım tək şüurun və yaddaşın dərinliklərinə sancılmır.

* * *

Böyük qurtuluş yanğısı ilə püskürən vulkanın lavası azadlıqda... donur!

* * *

Yarpaq sevməsə, ürək şəklini ala bilməz.

* * *

Quşlar dost olub göyə qalxdılar, sevgili olub yerə endilər.

* * *

Bir mövsümlük yarpaqlar bilir min illik gövdələrin ömürlüyünü.

* * *

Günəşin şəfəq-saçlarını darayır dağların qırçındarağı.

* * *

Gecə - Yer Kürəsinin onu quca-quca gəzən kölgəsi.

* * *

Gördüklərimiz də - canlı olsun, ya cansız, baxar olsun, ya baxmaz - görən gözümüzü görür.

* * *

Bir Qəlbin orkestrində çalınır Tənhalığın himni.

* * *

Həyatın bayrağı qaçan zebrin dərisində titrəşir.

* * *

Çarəsizlik: nə balalarını əmizdirmək istəyən ac pələngə cüyür tutub verə bilirəm, nə də pələngin qovduğu ana cüyürü onun pəncəsindən xilas edib balasının yanına qaytara bilirəm.

* * *

Təbiət nə gülür, nə ağlayır: insan aləmindəki gülməli və ağlamalı "molekullar" bunu bolluca kompensasiya edir.

* * *

Payız yarpaqları saysız çalarında tumurcuqdan açılarkən aldığı tər rəngin körpəliyinə qayıdaraq budağından qopur.